# Qurban müəllim

Bir insan yaşayır Borçalımızda,
Bir kəndin, bir elin ağsaqqalıdır.
Evin bəzəyidir oğul da, qız da,
Onun da evində bunlar varıdır.

Böyüdüb, yaşadıb, təhsil veribdi,
Hərəsi bəlli bir yaşdadı indi.
Həm sadə, həm sakit ömür sürübdü,
Yeri yuxardadı, başdadı indi.

Örnəyi götürüb ulularından,
Əməli düz olub, niyyəti təmiz.
Həyatı zəhmətlə yaşadığından,
Hörməti böyükdür, xətri də əziz.

Kövrəkdi ürəyi, incədi qəlbi,
Ya sevinc, ya kədər, gözləri dolar.
Elə ki, kimdənsə bir xəbər gəldi,
Tələsər, hamıdan qabaqda olar.

Bitib, tükənməyir arzunun sonu,
Hələ çox istəyi, çox diləyi var.
Qapını açanlar tanıyar onu,
Geniş süfrəsi var, bol çörəyi var.

Ötən illərini məktəbdə qoyub,
Ümid var, inam var hər bir sözündə.
Bunu uşaqlar da anlayıb, duyub,
Görür hamısını bala gözündə.

Yerişi, duruşu hələ yerində,
Qayğılar olsa da ağır yük kimi,
Elin xeyirində, elin şərində,
Sayılıb seçilir bir böyük kimi.

Həyata sevgisi sönməyib qəti,
Həyatda ad alır yorulmayanlar.
Evə, ailəyə sonsuz diqqəti,
Ömür - gün dostuna sədaqəti var.

İbrətdi həyatı, vurğun olmuşam,
Söyləsin sirrini öyrənim, bilim.
Gəlib Abdallıya, gəlib bir axşam,
Deyim ki: xoş gördük, Qurban müəllim!

**Kamandar Eyvazlı**

**Olaylar.- 2022- ci il.- 1-7 aprel.- S. 22.**